


*Şair Ağacəfər Həsənli müasir Azərbaycan poeziyasında öz dəst-xətti, üslubu ilə seçilən istedadlı qələm sahiblərindən biridir. Ötən əsrin 70-80-ci illərində ədəbiyyata gələn müəllif ilk şerlərindən oxucuların maraq və diqqətini cəlb etmiş, özünə pərəstişkarlar qazanmışdır. Şairin əsərlərinin əsas xüsusiyyətləri özünəməxsusluq, yığcamlıq, dəqiqlik, konkretlik, bir sözlə, hər bir ifadəyə söz sərrafının həssaslıqla yanaşmasındadır. Son illərdə bir neçə kitab çap etdirən şair yeni əsərlər toplusunu (Ağacəfər Həsənli. Yağmur əlifbası, Bakı -2006) oxucularına təqdim etmişdir.*

# Doğma misralar

Hazırda kompüter, internet əsrində yaşayırıq. İnformasiya bolluğu və sıxlığı şəraitində hamı vaxt azlığından şikayət edir. Bu baxımdan şairin vaxt mövzusuna müraciəti təbiidir və zamana münasibəti də özünəməxsusdur.

«Yağmur əlifbası» kitabı «Vaxta xitab» şeri ilə açılır. «Nə əvvəli bəlli, nə sonu bəlli» zamanın xüsusiyyətlərini poetik dillə oxucuya təqdim edən şair şeri aşağıdakı misralarla bitirir:

*Eyyy, hara gedirsən, ay qaradinməz?*
*Hamıdan kəsirsən,*
*özün kəsrsən...*
*İlsən, qərinəsən, yoxsa əsrsən?*
*Sürüşüb aradan elə çıxırsan,*
*adamın evini belə yıxırsan,*
*ay qaradinməz,*
*ay qaradinməz.*

İnsan yaşlaşdıqca, ömür üstünə ömür gəldikcə uşaqlıq illəri, doğma yerlər, heç vaxt təravəti solmayan xatirələr adamın xəyalında canlanır, onu düşünməyə,-həyatı daha mənalı keçirməyə çağırır. Müəllifin uşaqlıq xatirələri fonunda qələmə aldığı «Girdətəpə» şerinin mövzu və məzmunu bizə doğmadır. O məsum uşaqlıq çağlarının şer dili ilə təcəssümü oxucuda xoş ovqat yaradır. Həmin əsərdən bir parça fikrimizin sübutu üçün kifayətdir:

*Qoyun otarırdıq Girdətəpədə,*
*qarın otarırdıq Girdətəpədə.*
*Gəvən çıxarardıq, daş daşıyardıq,*
*biçilmiş zəmidən dərz daşıyardıq.*
*ot-ələf yığardıq Girdətəpədə.*
*Gah da səsimizi zildən qaldırıb –*
*malını oxuyardıq Girdətəpədə.*
*Sözümüzü quşlar əzbərləyərdi,*
*təqlid eləyərdi böcəklər bizi.*

Bizi əhatə edən ətraf aləm ulu Tanrının yaratdığı möcüzələrlə doludur. İnsan hər dəfə ətrafda olanlara (çaya, dənizə, meşəyə, dağa, qayaya və s.) dərindən diqqət yetirdikdə heyrətdə qalır. Göydən yerə enən yağış damlaları, qar dənəcikləri İlahinin insanlara ən böyük bəxşişlərindəndir. Yağış damlalarının, qar dənəciklərinin, dolunun quruluşu, formaları da özünəməxsusluğuna, simmetrik xüsusiyyətlərinə görə seçilir. Şair A.Həsənlinin bu mövzuda yazdığı «Yağmur əlifbası» şerindən bir parçaya diqqət yetirək:

*Göy yağış əlifbasıyla*
*torpağa nəsə yazır.*
*Biz oxuya bilmirik –*
*çiçəklər, güllər oxuyur,*
*bülbüllər oxuyur.*

Bəli, yağışın torpağa yazdıqlarını insanlar oxuya bilmir, ancaq bitkilər oxuyur, oxuduqlarından güc alır, böyüyür, boy atır, çiçəkləyir, gül açır və bülbüllər də yağışın yaratdığı bu tamaşadan vəcdə gəlib oxuyurlar.

Əsl poeziya nümunələri ruhumuz üçün ən yaxşı mənəvi qidadır. O şer qüvvətlidir ki, adamı tərpədir, onu qəflət yuxusundan oyadır, pisliklərdən çəkindirir, saflığa, paklığa, ülviliyə səsləyir. Bu baxımdan A.Həsənlinin qələmə aldığı misralarda az sözlə dərin və lazımlı mənanın ifadəsi çox güclü olduğuna görə oxucu qəlbini ehtizaza gətirir, onu həyat barədə, ömrün sonu haqqında fikirləşməyə çağırır. Cəmi beş misradan ibarət aşağıda verdiyimiz parça bu qəbildən olduqca maraqlıdır. Axıcılıq, konkretlik və məna toxumunun genişliyi misraların əsas məziyyətləridir.

*Adamlar hərisliklə hektar-hektar torpağı*
*Çəpərə salır, hasara alır.*
*Ən ədalətli bölgü Allahındır:*
*Adamlara torpağı qəbir-qəbir paylayır*
*Ki, bərabər yaşasınlar.*

«Yağmur əlifbası» kitabında müxtəlif səpkili şerlərlə bərabər, həm də A.Həsənlinin üç poeması verilmişdir. «Atam haqqında doqquz hekayət» əsəri bunların birincisidir. Real həyat hadisələrinin təcəssümü poema-

nın əsasını təşkil edir və burada işlənən hər bir misra bizə doğmadır. Doğrusu, A.Həsənli poeziyasının pərəstişkarlarından biri kimi mən də şairdən bu mövzuda çoxdan əsər gözləyirdim. Nə yaxşı ki, gec də olsa, müəllif bizi sevindirdi. Poemanın əsas qəhrəmanı ötən əsrin 40-60-cı illərində Lerik rayonunun Rvarud, Anzolu və Təngəbin kəndlərində kolxoz sədri işləmiş Hüseyn Əbülhəsən oğludur. Doğmalar haqqında bədii əsər yazmaq nə qədər şərəfli bir iş olsa da, bir o qədər də çətin və məsuliyyətlidir. Çünki həmin dövr hadisələrinin iştirakçısı olan insanların bir çoxu bu gün həyatda yaşayır, zamanın obyektiv təsviri labüddür. Şair bu çətinlikdən qorxmamış, o dövrün hadisələrini poetik süzgəcdən keçirərək real təsvirinə üstünlük vermişdir. Müəllif atasını – poemanın əsas qəhrəmanını xalqın çağırdığı dillə oxucularına təqdim edir (çünki o dövrdə həmin kolxozun ərazisində üç Hüseyn yaşayırdı: Hüseyn Əbülhəsən oğlu, Hüseyn İbrahim oğlu, Hüseyn İsmayıl oğlu) 1998-ci ildə dünyasını dəyişmiş Hüseyn Əbülhəsən oğlu onu tanıyanların yaddaşında mərd, işgüzar, xeyirxah, ədalətli, sözübütöv bir insan kimi qalmışdır. Düz sözü çəkinmədən üzə deyən, heç vaxt işləməkdən yorulmayan və hər kəsin əməyini layiqincə qiymətləndirməyə çalışan bu şəxsiyyət 1941-1945-ci illər müharibəsi dövründə və sonrakı illərdə Babək (əvvəllər Çapayev) adına kolxozda sədr işləmişdir. Onun rəhbərliyi dövründə kollektiv təsərrüfat iqtisadi cəhətdən xeyli irəliləmiş, çətin şəraitdə yaşayan insanlar aclıqdan qurtulmuş, nicat tapmışlar.

«Atam haqqında doqquz hekayət» poemasında A.Həsənli həm 1941-1945-ci illər müharibəsindən, həm də o dövrdə və sonrakı illərdə kolxozda gedən quruculuq işlərindən, kənd başbilənlərinin elmə, təhsilə verdiyi yüksək qiymətdən, həm də 1952-ci ildə Lerikin bir hissəsinin – sərhəd zonası Zuvandın köçürülməsindən və digər məsələlərdən poetik lövhələr şəklində bəhs edir. Poemanı oxuyarkən yadıma XX əsr Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndəsi M.Şəhriyarın «Heydərbabaya salam» əsəri düşdü. Çünki hər iki əsər arasında oxşarlıq vardır. Real kənd mənzərələrinin təsvirindəki yaxınlıq və şerlərindəki axıcılıq oxucunu məftun edir. Hüseyn Əbülhəsən oğlu kolxoz sədri seçiləndən sonra ilk növbədə ağsaqqalları başına yığır, onlardan məsləhət alır:

*Sağında əyləşdi Mirmənsim ağa,*
*solunda oturdu Mirvahab baba.*
*Qonşu məhəllədən Eynəli gəldi,*
*eyni məhəllədən Eyni də gəldi.*
*Sonra Baba kişi təşrif gətirdi,*
*ardınca Mustafa gəldi insafa.*
*Meşəbəyi Höccət dedi nə hacət,*
*Birləşək, bu yurdu behişt eyləyək.*

Rvarud kəndi Lerikdə ilk növbədə ağsaqqalları, ziyalıları, alimləri ilə tanınır. Müharibə dövründə və ondan sonrakı illərdə gənclərin təhsil almasına, elm yolu ilə irəliləməsinə böyük diqqət yetirilmişdir.

*«Hamı savad almalı»*
*elan etdi hər kəsə.*
*Mənsim oğlu Şamili*
*yola saldı mərkəzə.*
*Mirzağa Əbi oğlu*
*vəzifə aldı kənddə.*
*Barat direktor oldu*
*məktəbdə, qaldı kənddə...*
*Məhərrəm hakim idi,*
*Şabanovsa komissar.*
*Əyyub məktəbə girdi,*
*Sonra oldu deputat.*
*Ataxan Höccət oğlu*
*savad artırdı qat-qat.*

Şerdə adı çəkilən insanların hər biri el içində seçilən, tanınan adamlardır. Lakin onlardan biri – Hacı Şamil İsgəndərov barədə bir qədər məlumat vermək, məncə, vacibdir. Uzun illər Lerikdə rəhbər vəzifələrdə çalışmış bu şəxsiyyət həm də el ağsaqqalı olmuşdur. O, köməyə, yardıma, məsləhətə gələn hər bir kəsə dayaq durmuşdur. Bu gün hansı məclisdə adı çəkilirsə, böyük hörmətlə xatırlanır, ruhuna dualar oxunur.

«Cəsurluğun simfoniyası» əsəri Azərbaycanın Milli Qəhrəmanı Ç.Mustafayevin işıqlı xatirəsinə həsr olunmuşdur. Poema Qarabağ mövzusunda yazılmış ən yaxşı əsərlərdən biri hesab oluna bilər. Müəllif döyüş bölgələrində müharibə dəhşətlərini video-kamerasına köçürən cəsur, qorxmaz Çingizin parlaq obrazını gözlərimiz qarşısında canlandırır. Ölümü ilə ölməzliyə qovuşan Çingiz şəhidlik zirvəsini cəsarətlə fəth edir:

Əslində Çingiz ölümün gözünün içinə dik baxmışdı. Göz qırpmamışdı.

*Ölümü dəf etmişdi,*
*hədəf seçmişdi içində –*
*heç kəsə deməmişdi,*
*sirr saxlamışdı o vaxt.*
*Ölüm də boy atmışdı,*
*içində yekəlmişdi.*

Biz topludakı bəzi əsərlər barədə yığcam şəkildə fikirlərimizi bölüşməyə çalışdıq. Bütövlükdə «Yağmur əlifbası» kitabı oxucuda xoş ovqat yaradır. Şair qardaşımıza yeni-yeni yaradıcılıq uğurları arzulayır və ondan daha sanballı əsərlər gözləyirik.

**Hacı BAYRAM**